https://doi.org/10.59849/2410-5600.2026.1.53
UOT: 82

**Səbinə Əhmədova**
*Filologiya elmləri doktoru, dosent*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: ehmedova3@mail.ru*

# FÜZULİ YARADICILIĞINDA "VƏHDƏTİ-VÜCUD" FƏLSƏFƏSİ

**Xülasə**

Təqdim edilən materialda Məhəmməd Füzuli yaradıcılığında təsəvvüf fəlsəfəsinin əsas istiqamətlərindən biri olan Vəhdəti-vücud ideyasının bədii-fəlsəfi təhlilinə həsr olunmuşdur. Tədqiqatın məqsədi Füzuli poeziyasında ilahi eşq konsepsiyasının mahiyyətini və onun insanın mənəvi kamilləşmə prosesində rolunu müəyyənləşdirməkdir. Məqalədə şairin qəzəl və qəsidələri əsasında eşq və elm münasibəti, "can və canan" anlayışları, eləcə də aşiqin mənəvi təkamül yolu – fəna və vüslət mərhələləri təhlil edilir.

Araşdırma göstərir ki, Füzuli yaradıcılığında eşq yalnız poetik motiv deyil, kainatın ontoloji əsası və insanı Mütləq Həqiqətə aparan əsas idrak vasitəsi kimi təqdim olunur. Şairin poetik dünyagörüşündə kainatın hər bir zərrəsi ilahi varlığın təcəllisi kimi dərk edilir ki, bu da vəhdəti-vücud ideyasının bədii ifadəsini təşkil edir.

Nəticə etibarilə müəyyən edilir ki, Füzuli poeziyası bəşəri sevgidən ilahi eşqə doğru yüksələn mənəvi təkamül yolunu əks etdirir və Şərq fəlsəfi-estetik düşüncəsində mühüm yer tutur. Bu baxımdan Füzulinin irfani irsi insanın mənəvi kamilləşməsi və ilahi həqiqətin dərk olunması baxımından əhəmiyyətli elmi-fəlsəfi mənbədir.

***Açar sözlər:*** *eşq, fəlsəfə, idrak, vəhdəti-vücud, fəna, vüslət, irfan, elm*

**Giriş**

*Təqdim olunan yazı dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin yaradıcılığında irfani dünyagörüşün və təsəvvüf fəlsəfəsinin bədii-fəlsəfi təhlilinə həsr olunmuşdur. Burada əsas obyekt şairin qəzəllərindəki rəmzi obrazlar, irfani terminlər və ilahi eşqin mahiyyətidir. Yazıda Füzuli fəlsəfəsinin ana xəttini təşkil edən "Eşq" məfhumu təkcə hissi duyğu kimi deyil, kainatın yaradılış qayəsi və mütləq həqiqətə çatmağın yeganə vasitəsi kimi nəzərdən keçirilir.*

Giriş hissəsində Füzulinin məşhur *"Eşq imiş hər nə varsa aləmdə, Elm bir qeylü-qal imiş ancaq"* beyti əsasında "Eşq-Elm" qarşıdurması təhlil edilir. Füzuli burada elmi (zahiri bilikləri) tamamilə inkar etmir, lakin bəşəri ağlın Allahın zatını dərk etməkdə acizliyini, eşqin isə intuisiyaya və qəlbə əsaslanan ən uca idrak mərhələsi olduğunu əsaslandırır. Yazıda "vəhdəti-vücud" (varlığın birliyi) fəlsəfəsinin Füzuli lirikasındakı təzahürləri konkret beytlər üzərindən şərh olunur.

Bu yazıda "Can və Canan" münasibətləri, ruhun Allaha məxsus olması və aşiqin öz varlığından keçərək "fəna" məqamına ucalması məsələlərinə toxunulur. Füzuli üçün ölüm bir yoxluq deyil, əksinə, müvəqqəti əmanət olan canın əsl sahibinə qaytarılması və "Vüslət" (qovuşma) bayramıdır. Şairin özünü "şam" obrazı ilə müqayisə etməsi, eşq yolunda çəkilən iztirabın əslində bir mənəvi səltənət və azadlıq olması fikri məqalədə geniş yer tutur.

Bu yazıda eyni zamanda Füzulinin dünyəvi mal-mülkdən imtina edərək "dərvişlik" məqamını sultanlıqdan uca tutması faktı irfani nöqteyi-nəzərdən dəyərləndirilir. Sübut olunur ki, Füzuli

poeziyası bəşəri sevgidən (məcazi eşqdən) başlayaraq ilahi eşqə (Həqiqi eşqə) doğru uzanan mənəvi bir təkamül yoludur. Təhlillər göstərir ki, şairin yaradıcılığında hər bir zərrə Allahın nurunun təzahürüdür və bu, "vəhdəti-vücud"un bədii əksidir. Yekun olaraq bu yazı Füzulinin irfani mirasının müasir dövr üçün mənəvi-əxlaqi əhəmiyyətini və onun Şərq fəlsəfəsindəki müstəsna yerini xarakterizə edir. Füzuli bəyan edir ki, ruh və bədən daxili münaqişəsi üzərindədir. Füzuli ruhu "cövhər" adlandırır və onun mənşəyinin Allahın camalı olduğunu deyir. Bədən isə nəfsin qəfəsidir. İnsan bu dünyada qəribdir, onun ruhu öz əzəli vətəni olan Allaha qovuşmaq istəyir. Fəlsəfi qəsidələrində şair bizə öyrədir ki, nəfsi ram etmədən, bu "qəfəsi" mənən sındırmadan ilahi eşqin zirvəsinə çatmaq mümkün deyil.

*Eşq imiş hər nə varsa aləmdə,*
*Elm bir qeylü-qal imiş ancaq.* [2, s.354]

Bu misralar Füzuli fəlsəfəsinin ana xəttidir. Şair burada "eşq" deyərkən insanın Yaradanına olan o sonsuz meylini nəzərdə tutur. Onun fikrincə, kainatın yaradılış qayəsi sevgidir ("Mən gizli bir xəzinə idim, sevilmək üçün xəlq etdim" hədisi-qüdsisinə işarədir). Maddi elmlər, məntiqlə qazanılan biliklər insanı yalnız zahiri tərəflərlə məşğul edir. Lakin eşq ruhun qidasıdır və insanı vasitəsiz olaraq Allaha çatdırır. Füzuli burada elmi inkar etmir, sadəcə ilahi eşqin yanında elmin (əqlin) acizliyini vurğulayır. Elm insanı mübahisələrə, "nə üçün"lərə aparır, eşq isə insanı sorğusuz-sualsız Mütləq Haqqa təslim edir.

Bu beyti təhlil edərkən belə qənaətə gəlmək olar ki, Füzuli burada "vəhdəti-vücud" fəlsəfəsinin ən yüksək məqamını bəyan edir. Şairə görə, kainatın özəyi və hərəkətverici qüvvəsi eşqdir. Elm (zahiri biliklər) insanı ancaq maddi dünyanın qəlibləri içində saxlayır, "qeylü-qal" (dedi-qodu) yaradır. Lakin eşq insanı birbaşa Mütləq Haqqa qovuşdurur. Mən deyərdim ki, burada Füzuli elmi inkar etmir, sadəcə vurğulayır ki, Allahı dərk etmək üçün beyin (əql) deyil, qəlb lazımdır. İrfan elmində deyildiyi kimi: "Allahı tanıyanın dili lal olar", yəni eşq gələn yerdə sözlər bitir

Bu beyt insanın öz varlığından keçərək Allaha qovuşma (fəna) məqamını şərh edir:

*Canı canan diləmiş, verməmək olmaz, ey dil*
*Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim.* [5, s.70]

Təsəvvüf fəlsəfəsində "Can" (ruh) Allaha məxsusdur və insana müvəqqəti əmanət verilib. "Canan" isə Allahın rəmzidir. Füzuli burada könlünə (dilinə) xitab edərək deyir ki, əgər Yaradan verdiyi canı geri istəyirsə, burada mübahisəyə ("niza") yer yoxdur. Çünki bu can nə mənimdir, nə də sənin; o, əzəli sahibinindir. Bu, "eşqi-həqiqi"nin ən yüksək zirvəsidir: aşiq öz mənliyini unudur, mülkiyyət hissini itirir və bütün varlığını Allaha fəda etməyə hazır olur. Bu düşüncə tərzi insanı ölüm qorxusundan azad edir, çünki ölüm aşiq üçün əsl Vətənə, sevgiliyə (Allaha) qovuşmaq deməkdir.

Füzuli dünya malına olan bağlılığı ilahi eşq yolunda ən böyük maneə hesab edir:

*Ey Füzuli, eşq mən'indən qılarsan həmçü şəm,*
*Səltənətdir kim, gəda gəldikdə sultandan keçər.* [2, s.112]

Şair özünü şamla (şəm) müqayisə edir. Şam yanmaq üçün öz canından keçir və ətrafına nur saçır. Füzuli üçün eşq yolu zahirən bir yoxsulluq (gədalıq) kimi görünsə də, əslində bu, ruhun sultanlığıdır. Dünyəvi sultanlar torpağa, taxt-taca hökm edir, lakin Allahın eşqi ilə yanan "gəda" (dərviş, aşiq) mənən elə zəngindir ki, o, dünyanın bütün səltənətlərini bir kənara ata bilər. Çünki onun hədəfi fani olan deyil, Baqi (əbədi) olandır. Bu beyt birbaşa Allaha ünvanlanmış eşqin insana bəxş etdiyi mənəvi azadlığı və ucalığı simvolizə edir.

Aşağıdakı beyt aşiqin dünyadakı hər şeyi Sevgilinin (Allahın) təzahürü kimi görməsini ifadə edir:

*Hər nə baxsam gözümə sən görünürsən, ey dust,*
*Sən mənim rəhbərim ol, mən gedirəm, yolu itirmişəm.* [2, s.248]

Burada "Vəhdəti-vücud" (varlığın birliyi) nəzəriyyəsi özünü göstərir. Bu beyt təkcə vizual bir görməni deyil, həm də daxili bir bəsirəti ifadə edir. Şair üçün kainatda "yad" və ya "özgə" heç bir şey yoxdur; hər bir zərrə mütləq varlığın fərqli rənglərdə və formalarda əks olunmasıdır. Bu mənada, aşiqin baxışı maddi qabıqları yararaq birbaşa ilahi mahiyyətə nüfuz edir. Aşiq elə bir hala gəlib çatmışdır ki, hara baxırsa baxsın, hər bir çiçəkdə, hər bir zərrədə Allahın nurunu, Onun sənətini görür. Bu baxış bucağı irfanda "şühud" məqamı adlanır – yəni hər şeydə Haqqa şahidlik etmək. Füzuli bu məqama çatdıqdan sonra artıq kainatı ayrılıqda deyil, tam bir bütünlükdə, Vahid Varlığın aynası kimi qəbul edir. "Ey dust" (Ey dost) müraciəti burada birbaşa Allaha ünvanlanıb. Şair etiraf edir ki, mən maddi dünyada, nəfsimin əlində yolu azmışam, Sən mənə rəhbər ol və məni Özünə – Mütləq Həqiqətə yetir. Bu, insanın acizliyini dərk edərək Allaha sığınması və sevgisini izhar etməsidir. İnsanın "yolu itirməsi" əslində ruhun bu fani dünyada keçirdiyi qürbət hissinin etirafıdır. Füzuli vurğulayır ki, ilahi hidayət (rəhbərlik) olmadan nəfsin zülmətindən qurtulub nur aləminə çıxmaq qeyri-mümkündür.

Füzulişünaslıq elminə dərindən nəzər saldıqda görürük ki, dahi şairin "eşq" dediyi məfhum heç bir zaman maddi hüdudlara sığmır. Onun qəzəlləri birbaşa Allahın camalına açılan pəncərədir. Mənim apardığım təhlillər göstərir ki, Füzuli yaradıcılığı bütövlükdə bəşəri sevgidən ilahi eşqə (Eşqi-Həqiqiyə) keçid prosesidir. Bu keçid təsadüfi bir sıçrayış deyil, mənəvi bir kamilləşmə mərhələsidir. Şair göstərir ki, insan əvvəlcə gözəlliyi fani varlıqlarda sevir, lakin zamanla bu gözəlliyin keçiciliyini görüb, bütün gözəlliklərin mənbəyi olan Baqi (əbədi) Varlığa yönəlir. Füzuli poeziyası bu mənada ruhun təkamül tarixçəsidir.

*Ya Rəb, bəlayi-eşq ilə qıl aşina məni,*
*Bir dəm bəlayi-eşqdən etmə cüda məni.* [3, s.87]

Bu münacatda Füzulinin Allaha yalvarışının dərinliyinə diqqət yetirək. Adi insan üçün "bəla" qaçılması gərəkən bir müsibətdir, lakin Füzuli irfanında bəla – Allahın aşiqini sınağa çəkməsi və onu saflaşdırmasıdır. İrfan fəlsəfəsinə görə, bəla aşiqin sədaqətini ölçən bir tərəzidir. Qızıl odda sınağa çəkilib saflaşdığı kimi, aşiqin qəlbi də eşq bəlası ilə yanıb bütün maddi çirklərdən, mənlik iddiasından təmizlənir. Füzulinin bu bəlanı arzulaması əslində onun mənəvi saflığa və nura olan susuzluğunun göstəricisidir. Mən belə hesab edirəm ki, buradakı "eşq bəlası" ruhun dünyəvi asılılıqlardan qurtulması üçün keçdiyi oddur. Şair Allaha deyir ki, məni Sənin sevginin odundan ayırma, çünki mən ancaq o yanğı vasitəsilə Sənə yaxınlaşa bilirəm. Bu, bir qulun Yaradanına olan ən sadiq və təmənnasız sevgisinin təzahürüdür.

*Məndə Məcnundan fizun aşiqlik istedadı var,*
*Aşiqi sadiq mənəm, Məcnunun ancaq adı var.* [2, s.123]

Füzulinin "Leyli və Məcnun" fəlsəfəsinin kökündə dayanan bu fikir, əslində təsəvvüfdəki "məcazi eşqdən həqiqi eşqə" keçidi simvolizə edir. Burada "fizun" (çox) sözü keyfiyyət fərqinə işarədir. Məcnun Leylinin surətində ilişib qalmışdısa, Füzuli o surəti aşaraq birbaşa mənaya – mütləq Haqqa yönəlmişdir. Bu beyt şairin öz mənəvi məqamını müəyyənləşdirməsi və eşq yolunda keçdiyi məsafənin bəyanıdır. Leyli bir güzgüdür, Məcnun o güzgüdə Allahın camalını görür. Mənim fikrimcə, şair burada demək istəyir ki, həqiqi aşiq o kəsdir ki, artıq surətlərdən (insan cismindən) keçib mənalar aləminə (Allaha) qovuşub. "Məcnun" adı sadəcə bir libasdır, əsas olan qəlbdəki o sonsuz Allah sevgisidir. Füzuli bizə öyrədir ki, əsl eşq fədakarlıq və özündən imtina tələb edir; kim ki öz "mən"ini Allahın iradəsində əridə bilir, əsl eşq sultanlığına o sahib olur.

Füzulişünaslığın ən uca mərtəbəsi şairin qəzəllərindəki gizli şifrələri – yəni bəşəri simvolların arxasında gizlənən İlahi həqiqətləri üzə çıxarmaqdır. Təhlillər sübut edir ki, Füzuli üçün kainat Allahın bir təzahürüdür və aşiqin yeganə qayəsi bu təzahürdən keçib əslə qovuşmaqdır:

*Cana meylin var isə, vermə canana könül,*
*Aşiq olsan, həm cana, həm cahana qılma meyl.* [2, s.235]

Füzuli burada "vəhdət" yolunun yolçusuna (salikə) sərt bir xəbərdarlıq edir. Əgər bir könüldə həm Allah sevgisi (Canan), həm də dünya malına və öz canına bağlılıq varsa, o könül həqiqi eşqə sahib deyil. İrfan elmində "iki məşuq bir qəlbə sığmaz". Şair vurğulayır ki, Allaha gedən yolda

"mənlik" və "dünya" ən böyük pərdədir. İnsan həm dünyanı istəyib, həm də Allaha aşiq olduğunu iddia edə bilməz. Həqiqi eşq hər iki aləmdən (can və cahan) keçib, yalnız Mütləq Varlığa yönəlməkdir.

*Gül rüxündə görsə lütfi-Həqqi, arif gülməzmi,*
*Ol hüsndə müşahidə qılsa nuru-ilahi, sevinməzmi?* [2, s.322]

Bu misralar irfani mənada "təcəlli" (əks olunma) üzərində qurulub. Təcəlli fəlsəfəsinə görə, Allahın camalı hər an kainatın aynasında cilvələnir, lakin bu cilvəni görmək üçün qəlb gözünün açıq olması şərtdir. Füzuli burada vurğulayır ki, kainat bir kitabdırsa, onun hər hərfi Yaradanın qüdrətindən xəbər verir. Füzuli burada açıq şəkildə bildirir ki, arif insan (həqiqəti dərk edən) dünyadakı gözəlliklərdə, məsələn, bir gülün çöhrəsində Allahın lütfünü görür. Buradakı gözəllik cismani deyil, Allahın "Cəmal" sifətinin bir zərrəsidir. Maddi gözəllik fani və ötəridir, lakin o gözəlliyin arxasındakı ilahi naxış əbədidir. Arif odur ki, rəngə deyil, rəngi verənə, surətə deyil, surəti çəkənə aşiq olur. Arif o kəsdir ki, o gözəllikdə İlahi nuru müşahidə edir və bu idrakdan doğan mənəvi sevinc duyur. Bu, eşqin kor-koranə deyil, şüurlu və irfani bir dərk üzərində qurulduğunu sübut edir.

*Könül mülkün xərab etmə, qəmi-dünya ilə, ey qafil,*
*Ki, bu mülkün binası eşqi-Həqqdən bina olmuş.* [2, s.285]

Bu beytin dərinliyinə endikdə görürük ki, Füzuli qəlbi bir "məbəd" hesab edir. İnsanın daxili dünyası, yəni qəlbi kainatın mərkəzidir; çünki Allah heç bir yerə sığmadığı halda, möminin qəlbinə sığar. Bu mülkü dünya qayğıları, fani ehtiraslar və maddi sıxıntılarla doldurmaq, əslində bir xəzinəni zibilliyə çevirmək kimidir. O, insanı "qafil" adlandıraraq xəbərdar edir: dünya qayğıları, maddiyyat dərdi ilə o müqəddəs könlü xərabəyə çevirmə. Çünki könül mülkü Allahın eşqi ilə bünayə gəlib. Bu, birbaşa "Möminin qəlbi Allahın evidir" hədisinə bir işarədir. Mən bu şərhimdə onu demək istəyirəm ki, insan öz daxili dünyasını pak saxlamalıdır, çünki Yaradan bəndəsinə yalnız o təmiz qəlb aynasından nəzər salır. Könül mülkünün abadlığı yalnız zikr və sevgi ilə mümkündür; bura kənar duyğular daxil olduqda mənəviyyat binası sarsılır.

Füzulişünaslıq elminə dərindən nəzər saldıqda görürük ki, dahi şairin yaradıcılığı çoxşaxəli olmuşdur. Onun qələmi həm qəlbin ən incə tellərini titrədən lirik qəzəllərdə, həm də kainatın yaradılış sirlərini açan ağır fəlsəfi qəsidələrdə eyni dərəcədə qüdrətlidir. Füzuli qəzəllərdə, qitələrdə, məsnəvilərdə mahiyyət göstərdiyi kimi heyrətamiz qəsidə ustası olmuşdur. Özü də Füzulinin qəsidələri sadəcə bir mədhiyyə deyil, o, kəlam, fəlsəfə və irfanın kəsişməsidir. Bu əsərlərdə biz şairin təkcə bir sənətkar deyil, həm də dövrünün böyük bir filosofu, varlıq aləminin qanunauyğunluqlarını dərindən bilən bir mütəfəkkir olduğunu görürük.

Özü də Füzulinin qəsidələri sadəcə bir mədhiyyə deyil, o, kəlam, fəlsəfə və irfanın kəsişməsidir. Bu əsərlərit əhlil edərkən belə bir nəticəyə gəlmək olar ki, şair kainatı bir nizam daxilində görür və bu nizamın mərkəzində Mütləq Yaradanı (Haqqı) qərarlaşdırır.

*Xəlqə hər dəm təcrübeyi-fəzl eylər ol ustad ki,*
*Kim, hər nə qılsa, hikməti-məhzdir, eyn-i inayətdir.* [1, s.42]

Bu beytdə Füzulinin Allaha olan sarsılmaz inancı görünür. Şair kainatı bir mədrəsəyə, Allahı isə bir Ustada bənzədir. Burada vurğulanan odur ki, başımıza gələn hər bir hadisə, hər bir kədər və ya sevinc əslində "hikməti-məhzdir" (saf hikmətdir). İrfan fəlsəfəsində heç bir şey təsadüf deyil. Bizim şər gördüyümüz şeyin arxasında Allahın bir lütfü və inayəti gizlənib. Bu fikir aşiqi hər bir halda Allaha şükür etməyə və Ondan razı qalmağa (Riza məqamına) dəvət edir.

*Sənsən ol Vacib ki, hər mövcud Səndən buldu feyz,*
*Səndən özgə hər nə var, mütləq adəmdir, ey Xuda!* [8, s.154]

Bu misralarda "Vacibül-vücud" fəlsəfəsinin poetik ifadəsi görünür. Burada varlıq iki hissəyə bölünür: Vacib (olması zəruri olan – Allah) və Mümkün (olub-olmaması Allahın iradəsindən asılı olan - kainat). Füzuli bəyan edir ki, əgər Günəş olmasa, onun şüası da olmaz. Kainat Allahın nurunun

şüasıdır; şüa Günəşsiz yoxluğa məhkumdur. Füzuli bəyan edir ki, əsl varlıq yalnız Allahdır. Ondan başqa hər şey "adəm"dir (yoxluqdur).

*Həqqi-paki-paki-zati-Həqq eşqinə qıl rəhmət mənə,*
*Sənsən ol dərya ki, rəhmət lütfündən ümmidvaram.* [4, s.210]

Məşhur "Su" qəsidəsini təhlil edərkən mən belə bir incə məqam göz önünə gəlir.: Füzuli Peyğəmbəri (s.ə.s) Allahın rəhmət dəryasının ən böyük qapısı kimi görür. Lakin onun bütün müraciəti sonda yenə "Zati-Həqq"ə (Allahın özünə) bağlanır. Şair bildirir ki, kainatın ən uca varlığı olan Peyğəmbər Allahın nurunun əksidir. Mən hesab edirəm ki, Füzuli burada tövhidin zirvəsinə qalxır: hər bir vasitə, hər bir sevgi sonda mütləq Yaradana xidmət etməlidir.

*Cövhəri-ruhim ki, mənşə'dir camali-Həqqə,*
*Nəfsi-əmmarə əlindən bir qəfəsdir bu bədən.* [6, s.112]
*Qamu bimarınə canan dəvayi-dərd edər ehsan,*
*Niçin qılmaz mənə dərman, məni bimar sanmazmı?* [8, s.34]

Burada "bimar" (xəstə) dedikdə, şair dünya həsrəti ilə deyil, Allah eşqi ilə yanan aşiqi nəzərdə tutur. İrfani mənada Allah hər bir aşiqin dərdinə dərman verir, lakin Füzulinin bu sualı əslində bir nazdır. Şair vurğulayır ki, aşiqin dərdi elə bir məqamdadır ki, onun dərmanı elə həmin dərdin özüdür.

*Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir,*
*Mən kiməm, saqi olan kimdir, meyü səhba nədir.* [7, s.112]

Bu beytdə "vəhdəti-vücud" fəlsəfəsinin ən yüksək həddi olan "səkr" (mənəvi sərxoşluq) halı təsvir edilir. Aşiq İlahi gözəlliyin qarşısında öz mənliyini ("mən kiməm") və ətraf aləmi (dünyanı) tamamilə unudur. Burada "mey" – ilahi feyz, "saqi" isə insana mənəvi həqiqətləri çatdıran mürşid və ya birbaşa Yaradanın təzahürüdür.

*Ey Füzuli, rəşki-xəlq ilə özün qılma həlak,*
*Gər sənin pak isə zatın, xəlqə nə, dünyayə nə?* [9, s.285]

Bu beytdə şair irfani bir əxlaq dərsi verir. İnsan başqalarının paxıllığına və ya dünyanın fitnəsinə görə özünü üzməməlidir. Əgər bir insanın ruhu (zatı) Allah qarşısında pakdırsa, artıq insanların onun haqqında nə düşünməsinin heç bir əhəmiyyəti yoxdur. Bu, dərvişlik məqamındakı "istiqna" (ehtiyacsızlıq) halıdır.

**"Leyli və Məcnun"da Vəhdəti-vücud Təkamülü**

Füzulinin "Leyli və Məcnun" poeması sadə bir eşq macərası deyil, ruhun Allaha doğru apardığı irfani səfərin bədii xəritəsidir. Bu əsərdə Məcnun obrazı vəhdəti-vücud fəlsəfəsinin canlı təcəssümüdür. O, əvvəlcə Leylinin zahiri gözəlliyinə aşiq olur, lakin bu məcazi eşq onu pillə-pillə maddiyyatdan qoparıb mənaya doğru aparır. Məcnun səhrada təkləndikcə, əslində çoxluqdan (kəsrətdən) qurtulub təkliyə (vəhdətə) sığınır. Onun "Leyli, Leyli!" deyərək çağırdığı varlıq artıq bir qadın deyil, kainatın hər zərrəsində görünən İlahi Camaldır. Poemanın sonunda Məcnunun Leylini tanımaması, "Mən Leyliyəm, sən kimsən?" sualına "Mən sənəm!" cavabını verməsi fənafillah (Allahda yox olmaq) məqamının zirvəsidir. Burada artıq aşiq və məşuqun fərqi aradan qalxır, hər şey Vahid Varlığın içində əriyir. Füzuli bizə göstərir ki, Leyli bir bəhanədir, əsl hədəf Leyli vasitəsilə Mövlanı tapmaqdır.

**Füzulinin rəndəlik fəlsəfəsi: Mənəvi Azadlıq**

Füzuli yaradıcılığının ən maraqlı və dərin qatlarından biri də "rəndəlik" fəlsəfəsidir. Rənd – zahirən pərişan, dünya malına əhəmiyyət verməyən, daxilən isə Allahın eşqi ilə abad olan kamil insandır. Rəndəlik fəlsəfəsi ikiüzlü dindarlığa, riyakarlığa və zahiri göstərişlərə qarşı bir üsyandır. Füzuli özünü rənd adlandırarkən vurğulayır ki, mən insanların nə dediyinə, şahların səltənətinə, dünyanın şan-şöhrətinə baxmıram. Rəndin azadlığı onun heç nəyə ehtiyac duymamasındadır (istiqna məqamı). O, "eşq sultanlığı"nı dünyanın fani padşahlığından uca tutur. Bu fəlsəfəyə görə, həqiqi ibadət qorxu və ya cənnət arzusu ilə deyil, yalnız səmimi sevgi ilə mümkündür. Rənd o kəsdir ki,

qəlbi bütün kirlərdən təmizlənib və o qəlb yalnız Allahın təzahür yerinə çevrilib. Şairin "Məni rəndü rüsvay etmə, ya Rəbb!" duası əslində xalqın gözündən düşmək bahasına olsa da, Allahın gözündə ucalmaq istəyidir.

Vəhdəti-vücud və rəndəlik Füzuli düşüncəsində bir-birini tamamlayan iki qütbdür. Vəhdəti-vücud şairin varlığa baxışı (ontologiyası), rəndəlik isə bu baxışdan doğan həyat tərzidir (etikasıdır). Əgər hər şey Allahın nurudursa, o zaman dünyəvi rütbələr, var-dövlət və zahiri libaslar bir kölgədən başqa bir şey deyildir. Füzuli bu kölgələri tərk edərək İşığı seçən mütəfəkkirdir. Onun "dərvişliyi" bir yoxsulluq deyil, ruhun sonsuz zənginliyidir. Bu məqamda insan artıq heç kimdən və heç nədən asılı olmayan mənəvi müstəqilliyə qovuşur.

**"Bəngü-Badə": nəfs və ruhun alleqorik mübarizəsi**

Füzulinin gənclik illərində qələmə aldığı "Bəngü-Badə" poeması zahirən iki keyfverici maddənin mübahisəsi kimi görünsə də, dərin qatlarında böyük bir fəlsəfi qarşıdurmanı ehtiva edir. Bu əsərdə Bəng və Badənin münaqişəsi əslində insanın daxili aləmindəki nəfs və ruh, kibr və təvazö, maddiyyat və mənəviyyat arasındakı çəkişmənin rəmzidir. Vəhdəti-vücud fəlsəfəsi baxımından yanaşdıqda, hər iki tərəfin "mənlik" iddiası etməsi onların hələ həqiqət nurundan uzaq olduqlarını göstərir. Füzuli bu əsərdə bizə öyrədir ki, "mən" deyən kəs "Haqq"dan uzaq düşər. Bəng və Badənin bir-birinə üstünlük sübut etməyə çalışması, insanın bu dünyadakı fani rütbələr və saxta mənliklər arxasınca qaçmasının alleqoriyasıdır. Şair burada vurğulayır ki, həqiqi kamillik özünü uca tutmaqda deyil, öz varlığını Yaradanın qarşısında heçə saymaqdadır. Kim ki "mən varam" deyir, o, vəhdət dənizində bir damla olmağı hələ bacarmayıb.

"Hədiqətüs-süəda": Şəhadət və Fənafillah Məqamı

Füzuli yaradıcılığının zirvələrindən biri olan "Hədiqətüs-süəda" əsəri Kərbəla hadisələrini sadəcə bir tarixi faciə kimi deyil, eşqin və sədaqətin ən uca məqamı kimi təqdim edir. Bu əsərdə İmam Hüseyn (ə) obrazı vəhdəti-vücud fəlsəfəsindəki "Kamil İnsan" modelinin ən mükəmməl nümunəsidir. Şəhidlik – aşiqin öz canını Canana (Allaha) fəda edərək Ondan başqa hər şeyi (masivallıqı) tərk etməsi deməkdir. Füzuli göstərir ki, Kərbəla meydanı əslində eşq meydanıdır. Orada tökülən qan ruhun maddiyyatdan tamamilə qoparaq ilahi vəslətə (qovuşmağa) çatmasının nişanəsidir. İmam Hüseynin bütün çətinliklərə rəğmən "Razıyam" deməsi irfanda "Riza" məqamıdır ki, bu da vəhdəti-vücudun ən son hədəfidir: yəni bəndənin iradəsinin Allahın iradəsində tamamilə əriməsi. Bu əsərdəki kədər sadəcə ağlamaq üçün deyil, ruhun saflaşması (katarsis) və Allaha tərəf ucalması üçün bir vasitədir. Füzuli sübut edir ki, həqiqi səadət (səadəti-üzma) dünya malında deyil, Haqq yolunda özündən keçməkdədir.

**Nəticə**

*Məhəmməd Füzulinin irfani yaradıcılığını təhlil edərkən bu cür elmi-nəzəri qənaətlərə gəlməyə imkan verir: Füzuli yaradıcılığında eşq kainatın ontoloji əsasıdır. Şair üçün eşq sadəcə bir duyğu deyil, insanı maddi aləmin "qeylü-qalından" xilas edən, onu saflaşdıran və Mütləq Haqqa yetirən yeganə yoldur.. Şairin "elm" və "eşq" müqayisəsində üstünlüyü eşqə verməsi, onun irfani idrakı rasional idrakdan üstün tutmasının göstəricisidir. Füzuliyə görə, Allahı beyinlə deyil, qəlblə duymaq mümkündür. "Vəhdəti-vücud" fəlsəfəsi Füzuli poeziyasının ruhunu təşkil edir. O, kainatdakı hər bir zərrəni Yaradanın camalının əksi kimi görür və insanı bu ilahi gözəlliyi dərk etməyə səsləyir. Füzulinin "fəna" və "bəqa" haqqındakı düşüncələri insanı ölüm qorxusundan azad edərək, ona mənəvi ölümsüzlük bəxş edir. Canın əsl sahibinə təslim edilməsi ideyası mütləq təslimiyyət və sarsılmaz imanın bədii ifadəsidir. Yekun olaraq deyə bilərik ki, Füzuli irfani poeziyası insan mənəviyyatının ən uca zirvəsidir. Onun əsərləri bəşəriyyətə elmi biliklərlə mənəvi dəyərlərin sintezini, nəfsin islahını və ilahi eşqlə kamilləşməyin yollarını öyrədən əvəzsiz bir mənbədir.*

**Ədəbiyyat siyahısı:**

1. Füzuli, M. Əsərləri [altı cilddə] / M.Füzuli. tərt. ed. H.Araslı – Bakı: Azərbaycan, – 1996. – 359 s.
2. Füzuli, M. Əsərləri [altı cilddə] /M.Füzuli. tərt. ed. H.Araslı – Bakı: Şərq-Qərb, – c.1. – 2005. – 399 s.
3. Füzuli, M. Əsərləri [altı cilddə] / M.Füzuli. tərt. ed. H.Araslı – Bakı: Şərq-Qərb, – c.2. – 2005. – 335 s.
4. Füzuli, M. Əsərləri: [altı cilddə] / M.Füzuli. tərt. ed. Ə.Səfərli – Bakı: Şərq-Qərb, – c.6. – 2005. – 364 s.
5. Füzuli, M. Seçilmiş əsərləri / M.Füzuli. – Bakı: Çaşıoğlu: – 2004. – 600 s.
6. Füzuli, M. Füzuli divanı / M.Füzuli. – Bakı: Yazıçı, – 1987. – 450 s.
7. Füzuli, M. Qəzəllər / M.Füzuli. – Bakı: Yazıçı, – 1985. – 240 s.
8. Füzuli, M. Seçilmiş əsərləri / M.Füzuli. – Bakı: Lider nəşriyyat, – 2004. – 384 s.
9. Fuzuli, M. Türkçe Divan / M.Fuzuli. – Ankara: Akçağ Yayınları, – 1990. – 520 s.

**Sabina Ahmadova**

## THE PHILOSOPHY OF “WAHDAT AL-WUJUD” IN THE WORKS OF FUZULI

*Summary*

This paper is dedicated to the artistic and philosophical analysis of the concept of Wahdat al-Wujud (Unity of Existence), one of the fundamental directions of Sufi philosophy, within the creative output of Muhammad Fuzuli. The primary objective of the research is to define the essence of the concept of Divine Love in Fuzuli’s poetry and to determine its role in the process of human spiritual perfection. Drawing upon the poet’s ghazals and qasidas, the article analyzes the relationship between love (ishq) and knowledge (ilm), the concepts of "soul and beloved" (jan and janan), and the stages of the lover's spiritual evolution – specifically fana (annihilation of the self) and wuslat (union).

The study demonstrates that in Fuzuli's worldview, love is not merely a poetic motif but is presented as the ontological foundation of the universe and the primary cognitive instrument leading man toward the Absolute Truth. In the poet’s poetic vision, every particle of the universe is perceived as a manifestation (tajalli) of the Divine Being, which forms the artistic expression of the “Unity of Existence”.

In conclusion, it is established that Fuzuli's poetry reflects a path of spiritual evolution ascending from metaphorical (human) love to Divine love, occupying a vital position in Eastern philosophical-aesthetic thought. From this perspective, Fuzuli’s mystical (irfani) heritage serves as a significant scientific-philosophical source for understanding spiritual refinement and the realization of Divine Truth.

***Keywords:*** *love, philosophy, cognition, Wahdat al-Wujud, fana, wuslat, irfan (gnosis), ilm (knowledge)*